apfm
ASSOCIATION OF PROFESSIONAL FINANCIAL MANAGERS

# AZƏRBAYCANIN **PROFESSİONAL MALİYYƏ MENECERLƏRİ** ASSOSİASİYASI

Azərbaycanın Professional Maliyyə Menecerləri Assosiasiyası 29 iyun 2004-cü il tarixli Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının qanununun tətbiqi ilə əlaqədar 2007-ci ildə təsis olunmuş və yarandığı gündən etibarən maliyyə hesabatlarının beynəlxalq standartlarına keçidlə bağlı layihələrdə fəal iştirak etmiş, geniş təcrübə toplamış və hal-hazırda ölkədə ən öndə gedən və beynəlxalq akkreditasiyalara malik olan qurum kimi fəaliyyətini uğurla davam etdirir.



İlk dəfə olaraq APFM tərəfindən 2007-ci ildə Azərbaycanda Avropanın və Asiyanın bir çox ölkələrinin nüfuzlu qurumlarının nümayəndələrini cəmləşdirən Mühasiblərin və Auditorların 1-ci Avrasiya Forumu keçirilmişdir və APFM Mühasiblərin və Auditorların Forumunun Azərbaycanda rəsmi koordinatoru kimi bu ənənəni davam etdirərək 2008 və 2011-ci illərdə də respublika əhəmiyyətli belə bir möhtəşəm tədbirin yüksək səviyyədə keçirilməsinə nail olmuşdur.

Forumda əsas mövzu ətrafında Azərbaycan dövlət qurumlarının rəsmi nümayəndələrinin və xarici ekspertlərin çıxışları dinlənilir, Beynəlxalq Maliyyə Hesabatları Standartlarının və Beynəlxalq Audit Standartlarının tətbiqi və inkişafı üzrə məsələlər geniş müzakirə olunur, dəyirmi stol arxasında müzakirələr, formal və qeyri formal görüşlər keçirilir.

Bu forum artıq Avrasiyanın mühasibləri və auditorları üçün mühüm və əhəmiyyətli bir hadisəyə çevrilmişdir. Forumda iştirak edən ölkələrin sayının artması da elə bunu sübut edir.

Respublikanın ictimai əhəmiyyətli qurumlarının, nazirliklərinin, dövlət və kommersiya təşkilatlarının dəstəyi sayəsində

*İştirakçı ölkələr: Azərbaycan, Türkiyə, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, Kanada, Rusiya Federasiyası, Rumıniya, Çex Respublikası, Slovakiya, Polşa, Fransa, Latviya, Litva, Ukrayna, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Hindistan və s.*



bu möhtəşəm hadisə respublikamızda daha geniş vüsət alaraq, daha səmərəli, effektiv və beynəlxalq əhəmiyyətli bir tədbirə çevrilir.

Assosiasiyanın xətti ilə sonralar digər MDB məkanında (Moskva, Riqa, Kiev, Krım) keçirilən Beynəlxalq forumlarda, İstanbulda və Kuala-Lumpurda keçirilən Mühasiblərin Dünya Konqresində Azərbaycan geniş tərkibdə nümayəndə heyəti ilə təmsil olunmuşdur.

Assosiasiyanın rəsmi tədris mərkəzi olan- Infosystem-Link Azərbaycanda ilk dəfə olaraq Beynəlxalq mühasibat uçotu və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə təlim kurslarının və imtahanlarının keçirilməsinə nail olmuşdur.

İlk məzunların diplomları (Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbər maliyyə işçiləri) 2006-cı ildə Riqa şəhərində keçirilən Mühasiblərin Avropa Forumunda təntənəli surətdə təqdim edilmişdir.

*Forum iştirakçıları bu hadisəni olduqca səmərəli və maarifləndirici qiymətləndirir, natiqlərin çıxışları yüksək dəyərləndirilir*

2010-cu ildə mərkəzdə metodoloji mərkəz yaradılmış və bu mərkəz birbaşa Sertifikatlaşmış Maliyyə Menecerləri İnstitutunun MDB üzrə şəbəkəsinə qoşulmuşdur. Metodoloji mərkəz tədris proqramlarının işlənib hazırlanmasını, tədris vəsaitlərinin Azərbaycan dilinə tərcüməsini, tədris prosesinə nəzarəti həyata keçirir. Hazırda tədris və imtahanlar ingilis, rus və azərbaycan dillərində keçirilir.

Hər il London və ya digər MDB ölkələrində bütün ölkələrin koordinatorlarının və metodistlərinin cəmləşdiyi konfrans keçirilir, tədris sistemində, proqramlarda yaranan yeniliklər müzakirə olunur. Mərkəzin metodistləri də bu yenilikləri sonradan öz təcrübələrində istifadə edirlər və beləliklə dinləyicilərə yeniləşdirilmiş tədris vəsaitləri təqdim olunur.

2007-ci ildən etibarən tədris mərkəzi Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları və Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına keçid ilə bağlı ictimai əhəmiyyətli qurumlarda, dövlət və özəl sektora aid çoxsayda şirkətlərdə təlimlər aparmış, sertifikatlasmış mütəxəssislərin hazırlanmasına öz töhvəsini vermişdir.



Xüsusilə onu qeyd etmək lazımdır ki, Maliyyə Nazirliyinin tapşırığı əsasında MHBS, KTMMUS və BTMMUS-nın tətbiq olunmasına dair tələbələr üçün xüsusi təlim proqramları işlənib hazırlanmış, dövlət və özəl ali təhsil müəssisələrindən seçilmiş müəllim və sonuncu kurs tələbələri üçün Bakıda, Sumqayıtda, Gəncədə və digər regionlarda təlimlər təşkil olunmuş, 300 nəfərə yaxın tələbə və müəllim heyəti sertifikatlaşdırılmışdır.

2006-2012-ci illərdə Moskva, Kiev və Riqa şəhərindən dəvət olunmuş mütəxəssislərin iştirakı ilə müxtəlif istiqamətlərdə treninqlər keçirilmiş, treninq və təlimçilər dinləyicilər tərəfindən yüksək qiymətləndirilmişdir.

2007-ci və 2011-ci illərdə Mərkəz „İlin Tədris Mərkəzi”, Mərkəzin müəllimləri “İlin Müəllimi”, tədris keçmiş və təhsili müvəffəqiyyətlə başa vurmuş beş tələbəsi “İlin Tələbəsi”, beş mütəxəssis “İlin Maliyyə Meneceri”, üç mütəxəssis isə “Maliyyə Meneceri peşəsinin inkişafına verdiyi töhvəsinə görə” nominasiyaları üzrə qalib seçilmişdir.

Mükafatlar hər il Sertifikatlaşmış Maliyyə Menecerləri Institutu tərəfindən London şəhərində keçirilən Beynəlxalq Konfransda Britaniya Kral ailəsinin nümayəndəsi Zati-aliləri Şahzadə Maykl Kent tərəfindən təqdim olunmuşdur.

Professional Maliyyə Menecerləri Assosiasiyası Böyük Britaniyanın Sertifikatlaşmış Maliyyə Menecerləri İnstitutunun

*Əziz həmkarlar, bu gün peşəkar aləmdə müxtəlif səviyyəli peşəkar mühasibat təşkilatları mövcuddur. Onlardan bəziləri qlobal masştabda uğurla və uzun illər fəaliyyət göstərir, digərləri isə yeni yaranır və peşəkar aləmdə özlərini sübut etməlidirlər. Bizim Sertifikatlaşmış Maliyyə Menecerləri Institutu isə bu aləmdə seçilir, çünki o ilk növbədə maliyyə menecerlərini və maliyyə direktorlarını birləşdirir.*

*Şahzadə Maykl Kent*





Azərbaycanda nümayəndəsi kimi fəaliyyət göstərir. Bu İnstitut (Institute of Certified Financial Management - ICFM) dünyanın ən iri mühasibat təşkilatı olan- Sertifikatlaşmış Mühasiblər İnstitutu (Institute of Certified Book-keepers - ICB Global) və Böyük Britaniyanın ən qədim peşəkar təşkilatlardan biri olan Kommersiya İnstitutu (Institute of Commerce) tərəfindən yaradılmışdır. Britaniya Kral ailəsinin nümayəndəsi Zati-aliləri Şahzadə Maykl Kent İCFM-in patronu elan edilmişdir.

15 dekabr 2008-ci il Haykler qalasında keçirilən illik yığıncaqda Şahzadə Maykl Kent çıxış edərək İCFM-in maliyyə menecerlərinin və direktorlarının maraqlarını təqdim edən peşəkar təşkilatlar sırasında öz layiqli yerini tutacağına əmin olduğunu bildirmişdir.

Assosiasiyanın tədris mərkəzi məşğələlərin yüksək səviyyədə aparılması üçün beynəlxalq standartlara cavab verən, texniki avadanlıqlarla təchiz edilmiş auditoriyalara, metodiki vəsaitlərin hazırlanması və çapı üçün, eləcə də administrativ məqsədlər üçün ayrılmış otaqlara malikdir. Bəzi tədris proqramlarında məşğələlərin daha sərbəst atmosferdə keçirilməsi məqsədilə mərkəzdən kənarda, Bakı ətrafı ərazilərdə və regionlarda səyyar məktəblər də təşkil olunur.



Beynəlxalq qurumlarda təcrübəyə əsaslanaraq Assosiasiya Azərbaycanda da üzvlük proseslərini həyata keçirmək məqsədilə yeni layihəyə başlamışdır və üzvlər üçün aşağıda sadalanan imtiyazları təklif edir:

- CPD və karyera perspektivləri ilə təmin olunur.
- İldə 2 dəfə seminar treninqlərdə iştirak edir.
- Tədris proqramlarında xüsusi güzəştlərlə təmin olunur.
- Londonda və dünyanın digər şəhərlərində təşkil olunan beynəlxalq forumlarda iştirak edir.
- Maliyyə və mühasibat uçotu sahəsində təcrübəli kadr kimi işlə təmin olunmaq üçün təşkilatlara tövsiyə edilir.
- Mütəmadi olaraq informasiya ilə təmin olunur (elektron və jurnal)
- Maliyyə və mühasibat uçotu üzrə peşəkar məqalələrini beynəlxalq nəşrlərdə çap etdirmək imkanı əldə edir.

## APFM TƏLƏBƏSİ VƏ ÜZVÜNÜN PORTRETİ

APFM-də təhsil təkcə Avropa səviyyəli yüksək biznes-tədrisindən ibarət deyil, bu həmçinin biznes idarəçiliyinin aparıcı ideyalarını bölüşən iş adamları cəmiyyətində unikal ünsiyyət vasitəsidir. Menecerlər arasında tədris biznes proqramlarının ayrılmaz xüsusiyyətidir. Tədrisin aktiv forması tələbələr arasında əməkdaşlıq və qarşılıqlı münasibətlərin formalaşmasına gətirib çıxarır, hamı prosesin iştirakçıları kimi çıxış edir. Rəhbərlik təcrübəsinə malik olan hər kəs tyutorla (praktik-müəllim) bərabər həm özünün, həm də tədris qrupunun yeni biliklərinin və idarəetmə bacarıqlarının formalaşmasına öz töhvəsini verir.
APFM üzvləri yüksək ixtisaslı mütəxəssislərdir. Onlar idarətmə sahəsində çalışır, yeni istedadlı menecerlər nəslini artırır, xüsusi biznes mədəniyyəti, peşəkar biznes dili formalaşdırır. Onların yaratdığı xoş mühit professional ünsiyyət dairəsini genişləndirir və biznesin inkişafına təkan verir.

## 2013-CÜ İLDƏ ASSOSİASİYA TƏRƏFİNDƏN KEÇİRİLƏCƏK TƏDBİRLƏR PLANI

- Mühasiblər və Maliyyə Direktorları üçün Beynəlxalq Forumların təşkili
- Üzvlər üçün dəyirmi stol: Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə 2013-cü ildə baş verən yeniliklərin müzakirəsi
- Regionlarda elmi-praktiki seminarların keçirilməsi
- "Qanunvericilikdəki əsas dəyişikliklər" – mütəmadi treninqlər təşkili
- Üzvlər üçün pratiki təcrübə mübadiləsinin aparılması
- Vergilər üzrə atual problemlər və onların müzakirəsi
- Assosiasiyanın rəhbərliyi altında Azərbaycan nümayəndə heyətinin xarici ölkələrdə beynəlxalq peşəkar təşkilatların nümayəndələri ilə görüşlərinin təşkili
- Üzvlərin illik nominasiyalarda iştirakının təmin edilməsi
- Üzvlər üçün mühasbat uçotu və maliyyə idarəetməsi üzrə metodiki tövsiyələrin hazırlanması
- Assosiasiya və digər beynəlxalq peşəkar qurumlar arasında əməkdaşlıq memorandumlarının imzalanması
- Digər beynəlxalq birliklərə üzvlük məsələləri üzrə işlərin aparılması
- Üzvlərin kvalifikasiyalarının artırılması üzrə ödənişsiz treninqlərin keçirilməsi
- Azərbaycan Respublikası Maliyyə Nazirliyi ilə birgə tədbirlərin təşkil olunması
- Assosiasiyanın aylıq jurnalının hazırlanması və çap olunması